*Müdrik siyasəti, uzaqgörən fəaliyyəti ilə müasir Azərbaycanı zamanın sınaqlarından mətanətlə çıxaran, xalqının tərəqqisi naminə bütün çətinliklərin öhdəsindən qətiyyətlə gələn ulu öndər Heydər Əliyevin dövlətçilik tarixində xidmətləri əvəzsizdir. Ötən əsrin 70-ci illərində dahi liderin rəhbərliyi ilə respublikada bütün sahələr üzrə genişmiqyaslı islahatların həyata keçirilməsi Azərbaycanı yeni inkişaf mərhələsinə yüksəltmiş, beynəlxalq aləmə inteqrasiya prosesi başlanmışdır. Mənalı ömrünü xalqına həsr edən, azərbaycançılıq ideologiyasının banisi olan ulu öndər dünya azərbaycanlılarını bir məqsəd, bir amal uğrunda birləşdirmək üçün yorulmadan mübarizə aparmış, dövlətimizin gələcək yolunu, mövqeyini müəyyən etmişdir.*



# Ən yeni tarix: cəsarət, fədakarlıq, xalqa bağışlanan ömür

## *1993-cü il iyunun 24-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Ali Sovetin sədri Heydər Əliyevə verilmişdir*

Hər zaman xalqın mənafeyindən çıxış edərək dövlətə sədaqətlə, şərəflə xidmət edən ümummilli lider canından artıq sevdiyi Azərbaycanın dünyanın sayılan-seçilən ölkələri sırasına yüksəlməsi üçün bütün bacarığını sərf etmişdir. Heydər Əliyevin 1993-cü ilin iyununda ölkəmizə ikinci dəfə rəhbərliyə qayıdışı ilə Azərbaycan adlı məmləkət dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu.

Müstəqilliyinin bərpasının ilk illəri Azərbaycan üçün çətin sınaq dövrü oldu. Hakimiyyətin səriştəsiz, dövlət idarəçiliyindən xəbərsiz insanların əlinə keçməsi nəticəsində respublikada özbaşınalıq, hərcmərclik hökm sürür, xaricdəki anti-Azərbaycan qüvvələrlə əlbir olan qruplar vəziyyətin gərginliyindən istifadə edir, məqsədli şəkildə qardaş qırğınına sövq edilən xalq çıxılmaz vəziyyətə düşür, əzəli torpaqlarını itirir, soydaşlarımız zorla, zülm və işgəncə ilə yurd-yuvalarını tərk edirdilər. Ermənistan tərəfindən Qarabağın işğal miqyası günbəgün genişlənir, mənfur düşmən başsız qalmış respublikanın yeraltı-yerüstü sərvətlərini talayırdı. Ölkə daxilində vətəndaş müharibəsinin qığılcımları alovlanır, qanunsuz silahlı birləşmələr tərəfindən ayrı-ayrı bölgələrdə dövlət idarələrinə, yerli icra hakimiyyətlərinə silahlı hücumlar edilir, idarəetmə iflic vəziyyətə düşürdü. Bir tərəfdən erməni təcavüzü, digər tərəfdən daxildəki düşmənlər müstəqilliyini yenicə bərpa etmiş respublikanı müşkül, çıxılmaz vəziyyətə salmışdılar. Lakin tarixin müxtəlif dönəmlərində işğallara, soyqırımlarına, deportasiyalara məruz qalan Azərbaycan xalqı taleyini zamanın hökmünə buraxmadı, öz müqəddəratını həll etmək, zamanın bu ağır sınağından qurtulmaq üçün min illər boyu əhəmiyyətini, mahiyyətini itirməyəcək tarixi qərar verdi: ulu öndər Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə xalq ayağa qalxdı. 1993-cü ilin 15 iyun tarixində Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Ulu öndər həmin gün parlamentin tarixi iclasında çıxış edərək demişdir: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm".

Ulu öndər Heydər Əliyev Ali Sovetin sədri kimi ilk gündən ölkədə sabitliyin təmin olunması, hərc-mərcliyin, özbaşınalığın qarşısının alınması istiqamətində gərgin fəaliyyətə başladı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görüldü. Əbülfəz Elçibəy belə ağır, böhranlı günlərdə dövlət orqanlarının rəhbərlərinə xəbər vermədən hakimiyyət postunu tərk edərək Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Kələki kəndinə getdi. Ulu öndər Heydər Əliyev sonralar müsahibələrinin birində bu barədə demişdir: "Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə xəlvəti, heç kəsə, o cümlədən də mənə xəbər vermədən təyyarə ilə Bakıdan çıxıb getmişdir. Halbuki təyyarə Bakıdan uçmazdan bir saat əvvəl biz bir yerdə idik. Yalnız səhər bizə məlum oldu ki, onun təyyarəsi Naxçıvana enmişdir, buradan prezidenti Xalq Cəbhəsinin üzvləri dağ kəndi Kələkiyə aparmışlar. O, indiyədək oradadır. Mən iyunun 18-dən 24-dək Əbülfəz Elçibəylə telefonla daim danışıqlar aparmışam, Azərbaycan Elmlər Akademiyasının prezidenti başda olmaqla ziyalıların nümayəndələrinin böyük bir qrupu - akademiklər, professorlar, yazıçılar, ağsaqqallar mənim təşəbbüsümlə oraya getmişlər… O, dəvətimizi qəbul etmədi, onunla razılaşmadı və indiyədək Kələki kəndində qalır. Prezidentin, demək olar ki, bütün vəzifələrinin Ali Sovetin sədrinə həvalə edilməsi haqqında fərmanı da elə onun özü imzalamış, öz fərmanıyla yalnız vətəndaşlığa qəbul və qanunların imzalanması hüquqlarını özündə saxlamışdır. Qalan hər şeyi o, Azərbaycan Ali Sovetinin sədrinə həvalə etmişdir".

1993-cü il iyunun 24-də Milli Məclis Prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi barədə qərar qəbul etdi. Həmin ilin 3 oktyabr tarixində ulu öndər ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Məhz belə mürəkkəb bir vəziyyətdə xalqın təkidli çağırışı ilə respublika rəhbərliyinə qayıdan, xalqını və dövlətini böyük təhlükələrdən xilas edən, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasını "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə həyata keçirməyə başlayan Heydər Əliyev vətəndaş qarşıdurmasının, xaos və anarxiyanın, cəmiyyətdə artan iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyin qarşısını məharətlə, fədakarlıqla aldı. Bu tarixi qayıdış ictimai-siyasi sabitliyin bərqərar olmasına, müstəqil dövlət quruculuğuna, respublikamızda sosial-iqtisadi dirçəlişə, ölkəmizin müstəqil siyasət yürüdərək dünya birliyində mövqeyini gücləndirməsinə böyük təkan verdi.

Heydər Əliyev, ilk növbədə, ölkədə rəhbərliyi ələ keçirmiş səriştəsiz "siyasilərin" yol verdiyi səhvləri düzəltməyə başladı və ölkənin daxili və xarici siyasətində mövcud olan yanlışlıqları yoluna qoydu. Xalqın mənafeyinin qorunmasına yönəlmiş islahatlar həyata keçirildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə yeri, nüfuzu beynəlxalq təşkilatlarla əlaqələri müəyyənləşdirildi. Ölkənin ümummilli mənafelərini müdafiə etmək, bütün sahələrdə inkişafa nail olmaq, xalqın, dövlətin təhlükəsizliyini təmin etmək ən vacib məsələ olaraq qarşıya qoyuldu və bu siyasət ulu öndərin Azərbaycana rəhbərliyinin son gününə qədər məqsədyönlü, düşünülmüş şəkildə həyata keçirildi.

Ulu öndərin hakimiyyətə qayıdışı xalqın istək və arzusunun təzahürü idi. Azərbaycan xalqı müstəqillik yolunda inamı nümayiş etdirdi, istiqlaliyyəti qoruyub saxlamaq üçün yalnız və yalnız dahi oğlunun düşünülmüş, məqsədyönlü siyasətinə arxalandı, ona etimad göstərdi. Bu böyük qayıdış xalqda rahatlıq, arxayınlıq, güvən yaratmaqla bərabər, həm daxildə, həm də xaricdəki düşmən qüvvələrin kirli planlarını alt-üst etdi. Azərbaycanın müstəqilliyini istəməyən, onun zəngin təbii ehtiyatlarını mənimsəmək üçün torpaqlarını belə satan alçaq niyyətli şəxslər artıq anlamağa başladılar ki, Azərbaycan sahibsiz, böhran burulğanında boğulan bir respublika deyil, ona dünyaşöhrətli siyasətçi, müdrik lider Heydər Əliyev rəhbərlik edir.

Ümummilli Liderimizin ikinci dəfə hakimiyyətə qayıdışı dövlətimizi, xalqımızı mövcud təhlükələrdən hifz etməklə yanaşı, həm də respublikamızın gələcək yolunu, dövlət siyasətini müəyyənləşdirdi ki, bu gün Cənubi Qafqazın lider dövləti olan Azərbaycan həmin siyasətin bəhrəsini görür.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**